# “Əsrin müqaviləsi”: 25 ilin uğurları və gələcək üçün böyük imkanlar

**XX əsr Azərbaycanın tarixində kifayət qədər mühüm hadisələrlə yadda qalıb. İstər Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və cəmi 23 ay ömür sürməsi, istərsə də 70 illik əsarətdən sonra 1991-ci ildə yenidən müstəqilliyin bərpa olunması və ötən 28 ildə qazanılan uğurlar zəngin tariximizin parlaq səhifələridir. Bu gün Azərbaycan 1991-ci ildəki gücsüz, kasıb, xarici dairələrdən asılı vəziyyətdə olan bir ölkə deyil. Şərqlə Qərbi birləşdirən, qitələr arasında körpü rolunu oynayan, siyasi baxımdan güclü, iqtisadi baxımdan varlı, sözünün dəyəri, ölkələr arasında hörməti, beynəlxalq aləmdə təsdiq edilmiş müsbət imicə malik, qlobal enerji layihələrinin həyata keçirildiyi dialoq, güc mərkəzidir, Azərbaycan. Ümummilli lider Heydər Əliyev qətiyyəti, uzaqgörənliyi, Prezident cənab İlham Əliyevin müasir, çevik və mükəmməl idarəçilik qabiliyyəti, əsl liderlik bacarığı sayəsində qüdrətli dövlətə çevrilən müstəqil ölkəmiz hazırda özünün sürətli inkişaf dövrünü yaşayır.**

Bəzən tarixdə verilən qərarlar, atılan addımlar illər keçdikcə daha çox qiymət qazanır, öz möhtəşəmliyi ilə yaddaşlarda qalır. Bu günlərdə 25 illiyini qeyd edəcəyimiz “Əsrin müqaviləsi” də məhz həmin mühüm məqamlar sırasındadır. Beynəlxalq aləmdə cərəyan edən proseslər, həyatımızın reallıqları bir daha sübut etdi ki, 1994-cü il sentyabrın 20-də Bakıda dünya ölkələrinin məşhur neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının (AÇG) dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dair imzalanan və tarixə “Əsrin müqaviləsi” kimi düşən məşhur Saziş zamanında verilmiş ən müdrik qərar idi. Obrazlı şəkildə desək, bu gün ölkəmiz məhz “Əsrin müqaviləsi”nin uğurlarını yaşayır.

Neft hasilatının 1997-ci ildə 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdırılması, əldə olunan böyük maliyyə resursları, regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən Dövlət proqramları, vətəndaşların sosial durumunun əhəmiyyətli dərəcədə yaxşılaşdırılması ilə bağlı görülən işlər, əməkhaqları, müavinət və təqaüdlərin dəfələrlə artırılması məhz “Əsrin müqaviləsi”nin bəhrələridir.

“Əsrin müqaviləsi”nin imzalanmasından sonra karbohidrogen ehtiyatlarımızın Avropa bazarlarına çıxarılmasını təmin edən BTC və BTƏ kimi əsas ixrac boru kəmərləri istifadəyə verildi. 2014-cü ildə təməli qoyulan, 2018-ci ildə rəsmi açılışı keçirilən və XXI əsrin layihəsi adlandırılan “Cənub Qaz Dəhlizi” isə uğurlu enerji siyasətimizdə növbəti parlaq səhifə açdı. Layihənin əsas seqmentlərindən biri olan TANAP Azərbaycan qazının Avropaya nəql edilməsi üçün tam hazır vəziyyətə gətirilib. “Cənub Qaz Dəhlizi”nin son həlqəsi olan TAP-ın tikintisi isə yekunlaşır. Məhz bu meqalayihə vasitəsilə təbii qaz ehtiyatlarımız Yunanıstan və Albaniyadan keçərək İtaliyaya, oradan da Avropanın digər ölkələrinə ixrac ediləcək.



Daha bir tarixi məqamı xatırlatmaq lazımdır. Belə ki, 2017-ci il sentyabrın 14-də Bakıda “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş müqavilə imzalandı. Bununla da “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilə kimi uzadıldı. Məlumatlara görə, 2050-ci ilə qədər AÇG-dən daha 500 milyon tona qədər neft hasil ediləcək.

Bu gün dünya miqyasında sayılıb-seçilən, artıq beynəlxalq şirkətə çevrilən SOCAR “Əsrin müqaviləsi”nin 25 illiyini böyük uğurlarla qeyd edir. Şirkətin flaqmanı sayılan, eyni zamanda ən böyük struktur bölməsi olan “Azneft” İstehsalat Birliyi (İB) də ötən 25 il ərzində məhsuldar fəaliyyəti, qazandığı müsbət göstəricilərlə həyata keçirilən yeni neft strategiyasına öz töhfələrini verib. Birliyimiz bu gün Azərbaycanın Xəzər hövzəsində 13, quru ərazisində isə 15 olmaqla, ümumilikdə 28 neft-qaz yatağında istismar işləri yerinə yetirir. Birlik tərəfindən 2019-cu ildə neft hasilatının stabilləşdirilməsi və artırılması üçün Tədbirlər Proqramı hazırlanıb. Əsas məqsəd isə neft-qaz hasilatının düşmə tempinin qarşısını almaq və hasilatın stabilləşməsinə nail olmaqdır. Bu ilin yanvar-iyul ayları ərzində qarşıda qoyulan plan və tapşırıqları həyata keçirmək üçün neft və qaz yataqlarının işlənməsi sahəsində işlər müvəffəqiyyətlə davam etdirilib. Hazırda istismarda olan yataqlarda hasilatın stabil saxlanması və artırılması istiqamətində ilin əvvəlindən fasiləsiz olaraq tədbirlər həyata keçirilir.

Rəqəmlərə diqqət yetirək. “Azneft” İstehsalat Birliyi üzrə 2019-cu ilin 7 ayında 3662924 ton neft, 3215980 min kubmetr təbii qaz hasil olunub. Ötən dövrdə qazmadan 33 quyu istismara daxil edilib və 84659 ton neft hasil olunub. Fəaliyyətsiz fonddan isə 56 quyu istismara daxil edilib və 52620 ton neft çıxarılıb. 588 əsaslı və 1667 cari təmir işləri aparılıb.

“Azneft” İstehsalat Birliyinin sifariş etdiyi quyuların qazma prosesi ən müasir və yüksək keyfiyyətli avadanlıqlar vasitəsilə həyata keçirilir, quyuların işlərinə nəzarət və geofiziki-ölçmə işləri dünya standartlarına uyğun aparılır. Ötən 7 ayda “Azneft” İB-nin istismar etdiyi yataqlarda ümumilikdə 48 quyunun qazması və 38 quyunun tikinti işləri təhlükəsiz, keyfiyyətlə və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırılıb. Qazması bitən quyuların 34-ü Kompleks Qazma İşləri Tresti (KQİT), 9-u “SOCAR AQŞ” və 5-i “Gulf Drilling Supply FZE” qazma şirkəti tərəfindən qazılıb. “Azneft” İB-nin sifarişi əsasında 3 podratçı təşkilat üzrə ümumilikdə 86017 metr qazma işi həyata keçirilib. İstismar etdiyimiz yataqlarda qazmaya başlanılan 57 quyudan 2-i kəşfiyyat quyusudur. 38 nömrəli kəşfiyyat quyusunun layihə dərinliyi 4150 metr təşkil edir və quyu “SOCAR AQŞ” tərəfindən Qala lay dəstəsinə qazılır. “Bulla-dəniz” yatağında 12 saylı özüldən layihə dərinliyi 6250 metr olan və KQİT tərəfindən qazılan 91 saylı kəşfiyyat quyusunda işləri uğura həyata keçirilir. Bununla yanaşı, “Bulla-dəniz” yatağındakı yeni 6 saylı stasionar dəniz özülündə 113 nömrəli istismar quyusunda qazma işləri 6200 metrdə tam yekunlaşıb, tamamlama işlərinə başlanılıb.

Qarşıdakı illərdə quyu fondu üzərində işlərin davam etdirilməsi, dənizdə yerləşən yataqlarda quyuların qazılması üçün yeni özüllərin tikilməsi, quruda yerləşən yataqlarda yan lülə üsulu ilə qazmanın genişləndirilməsi, suvurma və yeni üsulların təkmilləşdirilməsi, yeni yataqların istismara cəlb edilməsi istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulub. Bu məqsədlə istər fəaliyyətdə olan, istərsə də fəaliyyətsiz quyu fondu üzərində istehsalatın bütün istiqamətləri üzrə geoloji, texniki, texnoloji və təşkilati tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda hasilatda düşmə tempinin azaldılması üçün laylara müasir təsir üsulları, geoloji-texniki tədbirlərlə yanaşı, onların səmərəliliyin və müvafiq elmi-tədqiqat işlərinin aparılmasının, həmçinin, yeni istismar və horizontal quyuların qazılaraq istismara verilməsinin neft-qaz hasilatının artırılmasına təkan verəcəyini demək olar.

Hasilat göstəricilərinə təsir edən əsas amillərdən biri də yeni obyektlərin tikintisidir. Bu ilin yanvar-avqust aylarında Birliyimiz tərəfindən 21 obyekt istismara verilib. “Günəşli” yatağında 10 saylı DDÖ, 7 saylı DDÖ-nün yaşayış bloku və məişət evi yenidən qurularaq istismara təhvil verilib. Yataqda DDÖ 5-də əlavə 8 quyunun qazılması üçün yenidənqurma aparılıb və mart ayında istismara təhvil verilib. Yataqda 11 saylı özül əlavə 2 neft quyusunun qazılması üçün yenidən qurulub və iyul ayında istismara buraxılıb. “Neft Daşları” yatağında 10 ədəd istismar quyusunun qazılması üçün 331 saylı estakadayanı meydança tikilərək may ayında, 1954A saylı meydança da qazmadan sonra abadlaşdırılıb və iyul ayında “Pirallahı” yatağında 16 istismar quyusunun qazılması üçün 1220 saylı torpaq meydança tikilib və avqust ayında, Dalma Qurğuların Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin yenidən qurulması obyektinin İİ buraxılış kompleksi üzrə isə Dövlət Qəbul Komissiyası keçirilib və iyun ayında, müəssisənin Kompressor stansiyası yenidən qurulub və may ayında istismara buraxılıb. Eyni zamanda, “Bulla-dəniz” yatağında 2A saylı qaz-yığım məntəqəsinin, Qaz Anbarlarının İstismarı İdarəsinin Qalmaz YQA-nın aktiv qaz həcminin 1.5 milyard kubmetrə çatdırılması üçün 3 saylı KS-in tikintisi yekunlaşmaq üzrədir. “Neft Daşları” yatağında isə 614-617 əvəzedici estakadanın tikintisi başa çatdırılıb. Yaxın gələcəkdə tikintisi nəzərdə tutulan perspektiv iri layihələr də qarşıda duran əsas hədəflər sırasındadır. Belə ki, “Neft Daşları” yatağında 10 quyunun qazılması üçün 1646 saylı estakadayanı meydançanın, “Qərbi Abşeron” yatağında 16 istismar quyusunun qazılması üçün 50 saylı SDÖ-nün, Qaz Anbarlarının İstismarı İdarəsinin Qalmaz və Qaradağ sahələrində qazın kompleks hazırlanması qurğusunun və s. obyektlərin tikintisi planlaşdırılır.

Birliyimiz həmişə respublikanın qaz təsərrüfatının təkmilləşdirilməsi, inkişaf etdirilməsi istiqamətində müstəsna rol oynayıb. Qış mövsümündə respublikanın qaza olan tələbatının tam həcmdə ödənilməsi, təchizatının etibarlılığının, dayanıqlılığının təmin edilməsi məqsədilə Qalmaz və Qaradağ yeraltı qaz anbarlarından 1534057,332 min kubmetr qaz götürülüb. Bu ilin aprel ayından isə qazvurma mövsümünə başlanılıb. Anbarlara 1372281,276 min kubmetr qazın vurulması təmin edilib. Hazırda proses uğurla davam etdirilir. Yeraltı qaz anbarlarına vurulan qaz həcmlərinin artırılması məqsədilə, təsdiq edilmiş layihə əsasında Qalmaz sahəsində aktiv qaz həcminin 1.5 milyard kubmetrə çatdırılması üçün 6 ədəd 10QKNA markalı qazmühərrikli qazkompressor qurğularından ibarət 3 saylı qaz-kompressor stansiyasının tikintisi başa çatıb və stansiya istismara verilib. Qaradağ sahəsində isə aktiv qaz həcminin 2 milyard kubmetrə çatdırılması məqsədilə yeni 3 saylı qaz-kompressor stansiyasının tikintisi üçün artıq layihələndirmə işlərinə başlanıb.

“Azneft” İstehsalat Birliyi müasir dövrün tələbinə uyğun olaraq keyfiyyətli kadrların cəlb edilməsi və səmərəli yerləşdirilməsi, hər bir işçinin yüksək peşəkarlıq səviyyəsinin, hərtərəfli şəxsi inkişafının artırılması üçün şəraitin yaradılmasını təmin edir. Əsas hədəf isə şirkətin strateji məqsədlərinə və hədəflərinə uyğun işçilərin səriştəliklərinin artırılması və insan kapitalının inkişafıdır.

İşçilərin inkişafına böyük diqqət ayıraraq davamlı inkişaf üçün çoxşaxəli təlimlər təşkil edilir. Yeni qəbul olunmuş işçilərin iş mühitinə effektiv adaptasiyasını təmin etmək məqsədilə metodikaya əsasən yeni proqram tətbiq edilməkdədir. Birlikdə potensial kadr ehtiyacının qarşılanması, mövcud vəziyyətini və proseslərin gedişatı haqqında aktiv təhlil işləri aparılmaqdadır. Bununla əlaqədar, Birlik daxili işçilərin məmnunluğun və təlimlərin keyfiyyətinin ölçülməsi məqsədilə sorğular keçirir. Nəticələr təhlil olunur və müvafiq addımlar atılır. Korporativ sosial məsuliyyəti prioritet götürərək “Azneft” İB hər il olduğu kimi, müxtəlif universitetlərdən neft və qaz sənayesi üzrə təhsil alan 70 tələbənin idarə və təşkilatlarda ödənişli istehsalat təcrübəsi keçmələrinə şərait yaradıb və təcrübə proqramını müvəffəqiyyətlə keçən tələbələrin işə qəbulunu nəzərdə tutur. Əlavə olaraq istedadlı və bacarıqlı gənclərin cəlb edilməsi ilə bağlı Bakı Ali Neft Məktəbinin 56 məzunu işə qəbul edilib. İşçilərin bilik və bacarıqları ilə yanaşı, xidməti fəaliyyətinin qiymətləndirilməsinin həyata keçirilməsi üçün Birliyin struktur bölmələri üçün “Effektivliyin idarə edilməsi” layihəsi çərçivəsində komanda hədəfləri və işçilər üçün fərdi hədəflərinin təyin edilməsi prosesinin icrası davam etməkdədir.



Birliyin obyektlərində fasiləsiz işin təmin edilməsi, daim inkişaf etdirilməsi və təhlükəsizliyə ciddi əməl edilməsi əsas məsələlərdən biridir. 2019-cu ilin yanvar-iyul aylarında işçilərin təhlükəsiz və sağlam şəraitdə işləmələrinin təmin olunması, bədbəxt hadisələr və ya peşə xəstəliklərinin qarşısının alınması üçün əməyin mühafizəsi üzrə qarşıya qoyulmuş hədəflər müəyyən edilib. Həmin hədəflər sırasında işçilərə təhlükəsiz iş üsullarının öyrədilməsi məqsədilə müxtəlif mövzular üzrə təlim-kursları, texniki, yanğın və dəniz şəraitində işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə təlim-məşqlər, təlimatlandırma və biliklərin yoxlanılması kimi tədbirlər həyata keçirilib. İstehsalatda təhlükəsizliklə bağlı istismar olunan avadanlıqların etibarlı işinin təmin edilməsi məqsədilə aparılmış nəzarət tədbirləri zamanı risklərin vaxtında müəyyən edilməsi və qarşısının alınması, o cümlədən tətbiq edilən davranış və təhlükəsizliyin müşahidə sistemi əsasında işçilərin maariflənməsi və təhlükəsizlik mədəniyyətinin artırılmasına imkan yaradılıb.

“Azneft” İstehsalat Birliyinin idarə və müəssisələrində çalışan işçilərin sosial məsələlərinin həlli istiqamətində də mühüm işlər görülüb. Neft və qazçıxarma sahələrinə yeni konteyner evcikləri verilir, maddi yardımlar edilir. Sosial obyektlərdə abadlıq, quruculuq işləri görülür, neftçilərin rahatlığının təmin edilməsi üçün tələb olunan avadanlıqlar alınır, işçilərin məişət şəraiti daha da yaxşılaşdırılır, sahələrdə məişət evcikləri quraşdılır.

Fəaliyyətimizdə istehsalatla yanaşı, ətraf mühitin mühafizəsinə də xüsusi diqqət yetiririk. Bu ilin ötən dövründə idarə və müəssisələrdə ekoloji tədbirlər, o cümlədən lay sularının qapalı sistemdə utilizasiyası, neftlə çirklənmiş torpaqların təmizlənməsi, mədən ərazilərinin abadlaşdırılması, atmosferə atılan istilik effekti yaradan qazların azaldılması tədbirləri, məişət-çirkab sularının bioloji təmizləmə qurğularının tətbiqi ilə idarə olunması, dəniz NQÇİ-lərində işçilərin su təminatının yaxşılaşdırılması məqsədilə “Əks-Osmos” qurğularında dəniz suyunun şirinləşdirilməsi və yaşıllıqların salınması işləri həyata keçirilib. Daxili imkanlar hesabına 30,64 hektar mədən ərazilərində su gölməçələri qurudulub və abadlaşdırılıb. Yaz aylarında keçirilmiş ənənəvi iməciliklər zamanı 42063 müxtəlif növ ağac və gül kolu əkilib, qazon örtüyü sərilib, yaşıllaşdırma sahələrində olan ağac, gül və qazon sahələrinə aqrotexniki qulluq göstərilib.

Səmt qazlarının yığılaraq sistemə qaytarılması və ya atmosferə atılmasının qarşısının alınması məqsədilə “Neft Daşları” NQÇİ-nin 1637A saylı meydançasında 10 ədəd NQK markalı kompressorların quraşdırılmasına başlanılıb. Tullantıların idarə olunması istiqamətində də mühüm işlər görülüb. Ətraf mühitin mühafizəsi tədbirlərinin icrası ilə əlaqədar monitorinqlər keçirilib, təbliğat və maarifləndirmə işləri aparılıb. Gələcəkdə N.Nərimanov, “Abşeronneft” H.Z.Tağıyev və “Bibiheybətneft” NQÇİ-lərdə uzun illər ərzində formalaşmış neft şlamlarının emalı və zərərsizləşdirilməsi məqsədilə müasir emal qurğularının quraşdırılması nəzərdə tutulub.

Sadaladığımız faktlar, qeyd etdiyimiz rəqəmlər bir daha bunu deməyə əsas verir ki, “Azneft” İstehsalat Birliyi həyata keçirilən uğurlu neft strategiyasına öz mühüm töhfələrini verir. Şübhəsiz ki, illər keçdikcə bu töhfələr, uğurlar daha da artacaq, müasir neft tariximizə yeni parlaq səhifələr əlavə olunacaq.

Qarşıdan 20 Sentyabr - Neftçilər Günü gəlir. Fürsətdən istifadə edib, bütün neftçiləri bu əlamətdar gün, eyni zamanda “Əsrin müqaviləsi”nin 25 illiyinin tamam olması münasibətilə təbrik edir, onlara çətin və şərəfli işlərində müvəffəqiyyətlər arzu edirəm.

**Daşqın İSKƏNDƏROV,**
**“Azneft” İstehsalat Birliyinin**
**Baş direktoru.**